# Regional əməkdaşlığa böyük töhfə verəcək tarixi hadisə



**_Azərbaycan ilə İran arasında 30 il ərzində qurulan dostluq, qarşılıqlı etimad və yaxın qonşuluq münasibətləri hər iki ölkə xalqlarının rifahının daha da yaxşılaşmasında, iqtisadi-ticarət əlaqələrinin genişlənməsində mühüm rol oynayıb._**

Azərbaycan Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisiyə 11 mart 2022-ci il tarixli məktubunda da bu məsələlərə ətraflı toxunulub, dini və mədəni köklərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsinin qarşılıqlı hörmətə, mehriban qonşuluğa əsaslanan Azərbaycan-İran münasibətlərinin əsas təməlini təşkil etdiyi vurğulanıb.

Prezident İlham Əliyev məktubunda daha sonra qeyd edib: "Dostluq əlaqələrimizin bugünkü yüksək səviyyəsi otuz illik dövrdə ölkələrimizin birgə fəaliyyətinin nəticəsidir. Bu illər ərzində çoxsaylı qarşılıqlı səfərlər, imzalanan sənədlər, əldə edilən razılaşmalar və həyata keçirilən birgə layihələr siyasi, iqtisadi, nəqliyyat, enerji, mədəni və digər sahələrdə əməkdaşlığımızın dinamik inkişafında mühüm rol oynamışdır".

**(ardı 4-cü səhifədə)**

# Şərqi Zəngəzurda yeni nəqliyyat-kommunikasiya bağlantıları yaradılır



(əvvəli 1-ci səhifədə)

Ölkə rəhbəri Azərbaycan ilə İran arasındakı müntəzəm siyasi dialoqu və bir sıra sahələrdəki işbirliyini yüksək qiymətləndirərək, bu gün qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün böyük perspektivlərin mövcudluğunu diqqətə çatdırıb. Eyni zamanda, tarixi, əzəli torpaqlarımızın işğaldan azad olunması nəticəsində Azərbaycan–İran dövlət sərhədinin bərpasının müxtəlif sahələrdəki mövcud potensialdan tam şəkildə yararlanmasını, nəqliyyat–kommunikasiya dəhlizlərinin gerçəkləşdirilməsində birgə iştiraka əlverişli şərait yaradılmasını şərtləndirdiyini bildirib.

Prezident İlham Əliyev məktubunda bütün bunlarla bərabər, Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə ölkəmizin Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun əhəmiyyətini xüsusi dəyərləndirib. Ölkə rəhbəri hazırda işğaldan azad olunan ərazilərimizdə genişmiqyaslı yenidənqurma və bərpa işlərinin aparıldığını, qonşu İranı təmsil edən şirkətlərin də yaxın gələcəkdə bu prosesə qoşulacaqlarından məmnunluğunu vurğulayıb.

Yeri gəlmişkən, Azərbaycanla İran arasında bu gün müxtəlif sahələrdə, xüsusilə iqtisadiyyat, ticarət, sərmayə qoyuluşu, nəqliyyat-tranzit, sənaye, kənd təsərrüfatı və digər istiqamətlərdə uğurlu əməkdaşlıq mövcuddur. Təkcə 2021-ci ildə qarşılıqlı ticarət dövriyyəsinin 30 faiz, daşımalarının həcminin 70 faiz artması, cari ilin yanvar ayında ticarət əlaqələrinin təxminən, 22 faiz təşkil etməsi və hazırda 2050 İran şirkətinin respublikamızda uğurla fəaliyyət göstərməsi bunun bariz ifadəsidir. Yaxın vaxtlarda isə İran şirkətlərinin də Qarabağda yaradılan sənaye parkları və "Araz Vadisi İqtisadi Zonası"nda fəaliyyətə başlayacaqları planlaşdırılır.

Bütün bunlarla yanaşı, iki ölkə arasında neft-qaz sahəsində əməkdaşlıq yüksək səviyyədə inkişaf edir. Türkmənistan qazının İran üzərindən Azərbaycana tranziti uğurla həyata keçirilir. Elektroenergetika sahəsində əməkdaşlıq da xüsusi diqqətdə saxlanılır, iki ölkənin enerji sistemləri arasında elektrik enerjisi mübadiləsinin həyata keçirilməsi müsbət nəticələrlə müşahidə olunur. Hazırda isə Azərbaycan, İran və Rusiya arasında enerji dəhlizinin yaradılması layihəsi üzrə müvafiq tədbirlər gerçəkləşdirilir. Həmçinin Astaraçay üzərində yeni avtomobil və piyada yolu körpüsünün, Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları və su elektrik stansiyalarının tikintisinə mühüm önəm verilir.

Azərbaycanla İran arasında uğurlu əməkdaşlıq nəticəsində yaxın gələcəkdə birgə investisiya əsasında müxtəlifyönlü müştərək istehsal müəssisələrinin yaradılması, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin fəaliyyətinin daha da canlandırılması tərəflərin iqtisadiyyatına mühüm töhfə verəcəyi gözlənilir.

Hazırda bölgədə nəqliyyat kommunikasiyalarının açılması perspektivi səmərəli əməkdaşlıq üçün əlverişli imkanları şərtləndirib. Bu baxımdan iki ölkə arasında imzalanan İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında anlaşma memorandumu mühüm tarixi hadisə kimi dəyərləndirilir.

Xatırladaq ki, adıçəkilən memorandumun məqsədi Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası arasında yeni dəmir yolu, avtomobil yolu əlaqəsinin, eləcə də rabitə və enerji təminatı xətlərinin yaradılmasından ibarətdir. Buna nail olmaq üçün Araz çayı üzərində iki avtomobil (piyada keçidi ilə) və iki dəmir yolu olmaqla ümumilikdə dörd körpünün, eləcə də rabitə və enerji təminatı infrastrukturunun tikintisi nəzərdə tutulur.

Beləliklə, bu layihənin həyata keçirilməsi nəticəsində uzun illər ərzində Ermənistanın Naxçıvanı blokadada saxlanması siyasətinə son qoyulacaq. Respublikamızın iki regionu – Şərqi Zəngəzur ilə Naxçıvan arasında İran ərazisindən keçməklə avtomobil, dəmir yolu, enerji və rabitə bağlantısı yaradılacaq. Bununla bərabər, layihə bütövlükdə regionun nəqliyyat-kommunikasiya mənzərəsini dəyişəcək, Azərbaycan, İran və Türkiyəni birləşdirərək Avrasiyada avtomobil, dəmir yolu, elektrik enerjisi xətti və rəqəmsal bağlantıların daxil olduğu yeni çoxtəyinatlı dəhlizin yaradılmasını şərtləndirəcək.

Bu məqamda onu da xatırlatmaq yerinə düşər ki, Prezident İlham Əliyev martın 11-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə bölgədə yaranmış yeni reallıqların əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığını qeyd edib. Dövlətimizin başçısı xüsusilə nəqliyyat sahəsində imzalanacaq iki ölkə hökumətləri arasında Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında anlaşma memorandumunun önəmini yüksək dəyərləndirib.

Görüşdə, eyni zamanda, yaradılacaq kommunikasiya bağlantılarının yeni nəqliyyat yollarının açılmasını şərtləndirəcəyi, bu dəhlizin həm nəqliyyat, həm də elektrik enerjisi üçün önəmli bir beynəlxalq kommunikasiya olacağı vurğulanıb. Eyni zamanda, bu gün Şimal-Cənub Nəqliyyat Dəhlizinin bir qolunu təşkil edəcək bu yeni nəqliyyat yolunun işə salınması ilə həm Şərq-Qərb, həm də Şimal-Cənub istiqamətlərində əməkdaşlıq üçün əlverişli zəmin yaradılacağı xatırladılıb.

Söhbət zamanı Azərbaycan və İran arasında nəqliyyat sahəsində ikitərəfli əməkdaşlığın ölkələrimiz və bölgə üçün, həmçinin beynəlxalq səviyyədə önəmi rol oynayacağı da mühüm tarixi hadisə kimi qiymətləndirilib.

Burada bir məqama da toxunmaq istərdik. Azərbaycanla İran arasında imzalanan anlaşma memorandumun əhəmiyyətindən bəhs edən Milli Məclisin deputatı Vüqar Bayramov deyib ki, 2020-ci il noyabrın 10-da bağlanan üçtərəfli anlaşmadan keçən müddətdə Ermənistan Zəngəzur dəhlizinin qısa zamanda yaradılmasına əngəllər törətdi. Halbuki Ermənistan ərazisindən belə dəhlizin reallaşması iqtisadi baxımdan bu ölkənin özü üçün də yeni imkanlar yarada bilərdi. Digər tərəfdən, Ermənistan Zəngəzur dəhlizinə "dəhliz" deyil, "yol" kimi baxaraq bu faktordan gələcəkdə Azərbaycana qarşı təsir vasitəsi kimi istifadə etməyə can atırdı. Lakin heç bir halda kommunikasiyalarda regionun Ermənistandan asılılığı mümkün deyil. Azərbaycan Ermənistan sərhədindən cəmi 5 kilometr aralıda –İran ərazisindən keçəcək yeni kommunikasiya bağlantısı yaratmaqla öz planlarını reallaşdırdı və yenidən Ermənistan mühüm geostrateji əhəmiyyətə malik layihədən kənarda qaldı.

Vüqar Bayramovun sözlərinə görə, yeni layihə regionda əməkdaşlıq üçün yeni imkanlar yaratması baxımından vacib olmaqla yanaşı, bölgədə davamlı sülhün qorunub saxlanması aspektindən də mühüm önəm daşıyır. Regionun kifayət qədər iqtisadi potensialı var. Bu da regional nəqliyyat infrastrukturunun əhəmiyyətini daha da artırır.

Bu nəqliyyat xəttinin istifadəyə verilməsi, eyni zamanda, Azərbaycanı regionun nəqliyyat qovşağına çevirəcək. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir, birbaşa həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin inkişafına həm də maliyyə dəstəyi göstərir. Bu, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək.

Bu yol xüsusən də Şərq-Qərb nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının çıxışının gerçəkləşməsi baxımından əhəmiyyətli olacaq. Eyni zamanda, elektrik enerjisi ixracatçısı olan Azərbaycan İran ərazisindən keçməklə yalnız Naxçıvana və qardaş Türkiyəyə deyil, daha geniş coğrafiyaya, o cümlədən Avropaya elektrik enerjisi ixrac etmək imkanı da qazanacaq.

Rusiyaya qarşı tətbiq edilən sanksiyalar fonunda region üzərindən daşınan beynəlxalq yüklərin həcmində artımların olacağı gözlənilir. Bu isə ondan xəbər verir ki, yeni anlaşma ilə Azərbaycan regiondakı geosiyasi mövqeyini daha da gücləndirə biləcək.

Bu layihə Azərbaycan diplomatiyasının mühüm qələbəsi olmaqla ölkəmizin iqtisadi inkişafına xüsusi töhfə verəcək, regionda yaranan yeni reallıqların formalaşmasını sürətləndirəcək.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 13 mart.- S.1;4.